Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi




# İXRAC İCMALI

Oktyabr 2021

http://ereforms.gov.az
info@ereforms.org

“Yaşıl iqtisadiyyat” və “yaşıl enerji” konsepsiyası prioritet təşkil edir. Bu, bütün ölkəyə və xüsusən də azad olunmuş ərazilərə aiddir. İşğaldan azad olunmuş bütün ərazilər “yaşıl enerji zonası”nı təşkil edəcək. Eyni zamanda, “Ağıllı şəhər”, hətta “Ağıllı kənd” adlanan müasir texnologiyalar tətbiq olunacaq. Bunun üçün artıq müasir nəqliyyat, enerji, sosial-iqtisadi infrastruktur yaradılır. Bu gün Azərbaycan yeni texnologiyaların tətbiqi ilə müasirliklə tarixiliyi uzlaşdırır. Bu, həmçinin Azərbaycanın yenidənqurmaya, müasirləşməyə və texnoloji tərəqqiyə ehtiyac olan digər bölgələrimiz üçün də yaxşı nümunədir.



Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Qubadlı rayonuna səfəri zamanı ictimaiyyət nümayəndələri ilə görüşü zamanı
25.10.2021

# MÜNDƏRİCAT


Qeyri-neft sektoru üzrə ixraca dair məlumat ______ səh. 3

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi ______ səh. 15

"Azərkosmos"a aid xidmət ixracı haqqında məlumat ______ səh. 18

Qeyri-rezidentlər tərəfindən aparılan bank əməliyyatları haqqında məlumat ______ səh. 20

Azexport.az portalına daxil olan sifarişlər haqqında məlumat ______ səh. 22

"Bir Pəncərə" İxraca Dəstək Mərkəzindən qeyri-neft ixracı haqqında məlumat ______ səh. 25

1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT



## 2021-ci ilin yanvar-sentyabr ayları ərzində **14,6 milyard ABŞ dolları** dəyərində mal ixrac olunmuşdur

## 2021-ci ilin yanvar-sentyabr aylarında qeyri-neft sektoru üzrə ixrac **1,8 milyard ABŞ dolları** təşkil etmişdir

2021-ci ilin 9 ayı ərzində Azərbaycanın ixracı **14,6 milyard ABŞ dolları** olub. Qeyri-neft sektoru üzrə **1,8 milyard ABŞ dolları** dəyərində ixrac reallaşdırılıb. Qeyri-neft sektoru üzrə ixrac 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə **525,3 milyon ABŞ dolları** və ya **40,9 faiz** artıb. 2021-ci ilin 9 ayı ərzində qeyri-neft ixracında meyvə-tərəvəz məhsulları 398,9 milyon ABŞ dolları ilə əsas paya malik olub. Müvafiq dövr ərzində qeyri-neft ixracında pambıq iplik 3,3 dəfə, qara metallar və onlardan hazırlanan məmulatlar 2,3 dəfə, kimya sənayesi məhsulları 2,1 dəfə, şəkər 2,1 dəfə, pambıq lifi 80,8%, alüminium və ondan hazırlanan məmulatlarda isə 55,8% artım qeydə alınıb.

Normallaşma prosesinin davam etdiyi dövrdə sentyabr ayı üzrə xarici ticarət həcmi 1,7 milyard ABŞ dolları təşkil edib. Qeyri-neft sektoru üzrə ixracda artım 75,2 faiz təşkil etməklə 224,7 milyon ABŞ dolları

olub. 2021-ci ilin sentyabr ayı ərzində yeyinti məhsulları üzrə ixrac ötən ilin müvafiq ayı ilə müqayisədə 34,5% artaraq 46,2 milyon ABŞ dolları, qeyri-yeyinti məhsulları üzrə isə 90% artaraq 178,5 milyon ABŞ dolları təşkil edib.

2021-ci ilin yanvar-sentyabr ayları ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında qızıl (158,2 milyon ABŞ dolları) birinci olub. Bu siyahıda pambıq mahlıcı (149,5 milyon ABŞ dolları) ikinci, pomidor (tomat) (128,2 milyon ABŞ dolları) isə üçüncü yerdə qərarlaşıb. Digər yerləri tutan məhsullar müvafiq olaraq: ilkin formalı polipropilen (86,9 milyon ABŞ dolları), ilkin formalı polietilen (xüsusi kütləsi 0,94-dən az) (71,9 milyon ABŞ dolları), meşə fındığı (55,9 milyon ABŞ dolları), polimerləşmə nəticəsində əmələ gələn ilkin formalı digər maddələr (51,4 milyon ABŞ dolları), ilkin formalı polietilen (xüsusi kütləsi 0,94-dən çox) (50,4 milyon ABŞ dolları), karbamid (49,9 milyon ABŞ dolları), metanol (metil spirti) (48,6 milyon ABŞ dolları).

2021-ci ilin yanvar-sentyabr ayları ərzində Rusiya Federasiyasına 586,5 milyon ABŞ dolları, Türkiyəyə 455 milyon ABŞ dolları, İsveçrəyə 174 milyon ABŞ dolları, Gürcüstana 120,5 milyon ABŞ dolları və ABŞ-a 54,8 milyon ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub. Digər yerləri müvafiq olaraq: Ukrayna (36,2 milyon ABŞ dolları), Braziliya (31,5 milyon ABŞ dolları), Çin (27,4 milyon ABŞ dolları), Belçika (26,4 milyon ABŞ dolları), Qazaxıstan (26,1 milyon ABŞ dolları).

2021-ci ilin sentyabr ayında qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında Rusiya Federasiyası (64,2 milyon ABŞ dolları) birinciliyə yüksəlib. Bu siyahıda Türkiyə ikinci (47,7 milyon ABŞ dolları) və İsveçrə üçüncü (19,2 milyon ABŞ dolları) olub.

2021-ci ilin sentyabr ayı ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında karbamid (18,5 milyon ABŞ dolları) birinci, qızıl (18,1 milyon ABŞ dolları) ikinci və metanol (15,7 milyon ABŞ dolları) üçüncü olub.

# 2021-Cİ İLİN YANVAR-SENTYABR AYLARI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI

(2020-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)

2021 İXRAC İCMALI oktyabr



# 2021-Cİ İLİN SENTYABR AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI

(2020-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)



# 2021-Cİ İLİN SENTYABR AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI
(2020-ci ilin eyni dövrü ilə müqayisədə,  ABŞ dolları ilə)





# 2021-Cİ İLİN YANVAR-SENTYABR AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 10 ƏSAS İXRAC ÖLKƏSİ

(2020-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)






Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

# 2021-Cİ İLİN YANVAR-SENTYABR AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 10 ƏSAS İXRAC ÖLKƏSİ

(2020-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

| 2021 | Ölkə | 2020 |
|---|---|---|
| 36,2 | Ukrayna | 280,5 |
| 31,5 | Braziliya | 4,7 |
| 27,4 | Çin | 33,4 |
| 26,4 | Belçika | 1,1 |
| 26,1 | Qazaxıstan | 19,9 |

## 2021-Cİ İLİN SENTYABR AYINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 10 ƏSAS İXRAC ÖLKƏSİ

(2020-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)



# 2021-Cİ İLİN SENTYABR AYINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 10 ƏSAS İXRAC ÖLKƏSİ

(2020-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)



# 2021-Cİ İLİN YANVAR-SENTYABR AYLARINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
(2020-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2021 İXRAC İCMALI oktyabr

| | 2021 | 2020 |
|---|---|---|
| Qızıl | 158,2 | 150 |
| Pambıq mahlıcı | 149,5 | 82,7 |
| Tomat (pomidor) | 128,2 | 167,8 |
| PP İlkin formalı polipropilen | 86,9 | 53,1 |
| PE Xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen | 71,9 | 30,3 |
| Meşə fındığı | 55,9 | 67,4 |
| Polimerləşmədə ilkin formalı maddələr | 51,4 | 0,002 |
| PE Xüsusi kütləsi 0,94-dən çox olan ilkin formalı polietilen | 50,4 | 28,7 |
| Karbamid | 49,9 | 8,7 |



Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

# 2021-Cİ İLİN SENTYABR AYINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

(2020-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

| | 2021 | 2020 |
|---|---|---|
| Karbamid | 18,5 | 1,3 |
| Qızıl | 18,1 | 25,8 |
| Metanol (metil spirti) | 15,7 | 5,3 |
| Meşə fındığı | 11,8 | 8,3 |
| Xüsusi kütləsi 0,94-dən çox olan ilkin formalı polietilen (PE) | 11,5 | 0,7 |
| İlkin formalı polipropilen (PP) | 11 | 1,3 |
| Digər yağlar və məhsullar | 9,1 | 3,2 |
| İlkin formalı polipropilen sopolimerləri (PP) | 7,3 | 0,8 |
| Alüminium plitələr | 6,9 | 2,8 |

# 2021-Cİ İLİN YANVAR-SENTYABR AYLARI ƏRZİNDƏ DAŞINAN YÜKLƏR ÜZRƏ İSTİFADƏ OLUNAN NƏQLİYYAT NÖVLƏRİ VƏ MİQDARI



2

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

2021-ci ilin yanvar-sentyabr ayları üzrə hazırlanan qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunurlar: "MKT İstehsalat Kommersiya" MMC, "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, "Local Garden" Məhdud Məsuliyyətli Cəmiyyəti, "Baku Steel Company" MMC, "Sun Food" MMC, "P-Aqro" MMC, "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC, "RAM Beynəlxalq Nəqliyyat və Ticarət LTD" MMC, Hidayətov Təyyar Hidayət oğlu, "Bulder 007 LTD" MMC.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus olan şirkətlərin siyahısına isə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi" başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunurlar: "Socar Polymer" MMC, "Azergold" QSC, "Azəralüminium" MMC, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "Azərenerji" ATSC, "Azərbaycan Hava Yolları" QSC, "Azəripək" MMC, "Azərbaycan Dəmir Yolları" QSC, "Naxçıvan MR Dövlət Energetika Xidməti".

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.

2021 İXRAC İCMALI oktyabr

# 2021-Cİ İLİN YANVAR-SENTYABR AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ QEYRİ-DÖVLƏT İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)



# 2021-Cİ İLİN YANVAR-SENTYABR AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ DÖVLƏTƏ MƏXSUS ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)



3

# "AZƏRKOSMOS"A AİD XİDMƏT İXRACI HAQQINDA MƏLUMAT



## 2021-ci ilin yanvar-sentyabr aylarında "Azərkosmos" ASC 32,3 milyon ABŞ dolları dəyərində xidmət ixrac etmişdir

Yeni nəsil xidmət ixracı hesab edilən peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri sahəsi xidmət ixracının şaxələnməsi istiqamətində mühüm rola malikdir.

2021-ci ilin yanvar-sentyabr aylarında "Azərkosmos" ASC tərəfindən dünyanın 36 ölkəsinə **32,3 milyon ABŞ dolları** dəyərində xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edilib. "Azərkosmos" ASC-nin xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin **91 faizini** təşkil edib.

2021-ci ilin sentyabr ayında isə "Azərkosmos" ASC dünyanın 26 ölkəsinə **1,5 milyon ABŞ dolları** dəyərində xidmət ixrac edib.

2021-ci ilin yanvar-sentyabr ayları ərzində portala daxil olan ixrac sifarişlərinin ilk beşliyində isə 9,6 milyon ABŞ dolları ilə ABŞ, 7,2 milyon ABŞ dolları ilə Fransa, 6,6 milyon ABŞ dolları ilə Birləşmiş Krallıq, 3,7 milyon ABŞ dolları ilə Malayziya və 1,3 milyon ABŞ dolları ilə BƏƏ qərarlaşıb.

# 2021-Cİ İLİN YANVAR-SENTYABR AYLARINDA "AZƏRKOSMOS" ASC 32,3 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ XİDMƏT İXRAC ETMİŞDİR





## Xidmət ixrac etdiyi 5 əsas ölkə

| Ölkə | Dəyər |
|---|---|
| ABŞ | 9,6 mln $ |
| Fransa | 7,2 mln $ |
| Birləşmiş Krallıq | 6,6 mln $ |
| Malayziya | 3,7 mln $ |
| BƏƏ | 1,3 mln $ |

yanvar-sentyabr

| 2020 | | 2021 |
|---|---|---|
| 30,9 mln $ | +4,5% | 32,3 mln $ |

4

# QEYRİ-REZİDENTLƏR TƏRƏFİNDƏN APARILAN BANK ƏMƏLİYYATLARI HAQQINDA MƏLUMAT



## 2021-ci ilin yanvar-sentyabr ayları ərzində Azərbaycana gələn xaricilər bank kartları vasitəsi ilə 836,5 milyon manatlıq əməliyyat aparmışlar

Koronovirus (COVID-19) pandemiyası ilə bağlı yaranmış vəziyyət digər ölkələrdə olduğu kimi, Azərbaycanın da turizm sektoruna təsirsiz ötüşməyib.

2021-ci ilin sentyabr ayında xarici vətəndaşların bank kartları vasitəsi ilə ölkəmizdə apardıqları əməliyyatların həcmi **124,3 milyon manat** təşkil edib. 2021-ci ilin yanvar-sentyabr aylarında isə əcnəbilər bank kartları vasitəsi ilə **836,5 milyon manatlıq** əməliyyat aparıblar.

Bu barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikada verilmişdir.

# AZƏRBAYCANA GƏLƏN XARİCİ VƏTƏNDAŞLARIN BANK KARTLARI VASİTƏSİ İLƏ APARDIQLARI ƏMƏLİYYATLAR (milyon manatla)

| | 2019 | 2020 | 2021* |
|---|---|---|---|
| Yanvar | 88,3 | 85,2 | 72,2 |
| Fevral | 85,3 | 72,9 | 112,2 |
| Mart | 98 | 53,9 | 93,2 |
| Aprel | 103,2 | 19,7 | 64 |
| May | 100,9 | 24,3 | 81,3 |
| İyun | 115,1 | 23,7 | 90 |
| İyul | 134,6 | 23 | 95,1 |
| Avqust | 137,4 | 25,6 | 104,2 |
| Sentyabr | 106,2 | 25,9 | 124,3 |
| Oktyabr | | | |
| Noyabr | | | |
| Dekabr | | | |
| | 969 | 354,2 | 836,5 |

* Mərkəzi Bankın 2021-ci il üçün yenilənmiş statistikası əsasında

# 5

# AZEXPORT.AZ PORTALINA DAXİL OLAN SİFARİŞLƏR HAQQINDA MƏLUMAT

## Portala daxil olan ixrac sifarişlərinin ümumi dəyəri 2 milyard 592 milyon ABŞ dolları təşkil etmişdir

2021-ci ilin sentyabr ayında isə portala daxil olan ixrac sifarişlərinin dəyəri **43,2 milyon ABŞ dolları** təşkil edib.

2021-ci ilin yanvar-sentyabr aylarında Azexport.az portalına **367,6 milyon ABŞ dolları** dəyərində ixrac sifarişləri daxil olub. 2021-ci ilin sentyabr ayında Azexport.az portalına ən çox ixrac sifarişi pambıq, xurma, nar şirəsi, fındıq ləpəsi, un, meyvə cemi, kərə yağı, qızılgül, qənnadı məhsulları, tütün, mühərrik yağı və s. mallara daxil olmuşdur.

Məlumat üçün qeyd edək ki, 2017-ci ilin yanvar ayından 2021-ci ilin 30 sentyabr tarixinə kimi (57 ay ərzində) Azexport.az portalına dünyanın 145 ölkəsindən daxil olan ixrac sifarişlərinin dəyəri **2 milyard 592 milyon ABŞ dolları** təşkil edib.

# AZEXPORT.AZ PORTALINA DAXİL OLAN İXRAC SİFARİŞLƏRİNİN MƏBLƏĞİ

(milyon ABŞ dolları ilə)









# 2021-Cİ İLİN SENTYABR AYINDA AZEXPORT.AZ PORTALINDAN İXRAC SİFARİŞİ ALAN ƏSAS MALLAR



AZEXPORT.AZ
Made in Azerbaijan

- Pambıq
- Fındıq ləpəsi
- Un
- Xurma
- Nar şirəsi
- Kərə yağı
- Meyvə cemi
- Qızılgül

6

# “BİR PƏNCƏRƏ” İXRACA DƏSTƏK MƏRKƏZİNDƏN QEYRİ-NEFT İXRACI HAQQINDA MƏLUMAT

## 2021-ci ilin oktyabr ayında “Bir Pəncərə” İxraca Dəstək Mərkəzindən 23,3 milyon ABŞ dolları dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir

“Bir Pəncərə” İxraca Dəstək Mərkəzinə 2021-ci ilin oktyabr ayı ərzində 32 hüquqi və fiziki şəxs tərəfindən **141 dəfə müraciət** daxil olmuşdur. Ümumilikdə **223 ədəd sertifikat** (72 ədəd mənşə, 90 ədəd fitosanitar 48 ədəd baytarlıq,13 ədəd CİTES) verilib.

Cari ilin oktyabr ayı ərzində “Bir Pəncərə” İxraca Dəstək Mərkəzi vasitəsilə **23,3 milyon ABŞ dolları** dəyərində ixrac həyata keçirilmişdir. Hüquqi və fiziki şəxslər tərəfindən qiymətli külçələr, nar, alma, qarışıq şirələr, spirtli  içki, narşərab, pambıq mahlıcı, pambıq çiyidi, pambıq çiyidinin cecəsi, biyan kökü, tibbi zəli, yemlik arpa, torf, günəbaxan tumu, noxud, buğda, çuğundur əzməsi, iri və xırdabuynuzlu heyvanların daxili orqanları, iribuynuzlu heyvan dərisinin sənayedə kəsilməsi nəticəsində yığılan faydasız tullantılar, dondurulmuş toyuq ayaqları, bitki tərkibli kərə yağı, qızılgül, akvakultur üsulu ilə yetişdirilmiş nərəcinsli balıqların dondurulmuş əti, iribuynuzlu heyvan bağırsağı, dondurma məhsulu, pendir, yağ, polad armatur yayması, polad boru, taxta paletin ixracı həyata keçirilib.

Yuxarıda adı çəkilən məhsullar arasında pambıq mahlıcı-47,1%, qiymətli külçələr-35,9%, polad boru-8,1%, meyvə şirələri-1,7%, süd məhsulları-1,1% ixracı üstünlük təşkil etmişdir. Sertifikat verilən məhsullar 20 ölkəyə (Türkiyə-49,1%, İsveçrə-35,9%, Rusiya-9,5%, Gürcüstan-1,8%, Honq-Konq-0,8%, digər ölkələrə (ABŞ, Belarus, Qazaxıstan, Banqladeş, İsrail, Kanada, Litva, Səudiyyə Ərəbistanı, İran, Sinqapur, Qırğızıstan, Azərbaycan (Duty Free), Fil Dişi Sahili, Honq-Konq, Almaniya)-12,4%) ixrac edilmişdir. İxrac olunan məhsulların avtomobil nəqliyyatı ilə-55%, hava nəqliyyatı ilə-36,1%, dəmiryolu nəqliyyatı ilə-7,1%, qarışıq nəqliyyat ilə ixracı isə-1% təşkil edir.

2017-ci ildən 2021-ci ilin noyabr ayına qədər "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsilə ixrac edilən mal və məhsulların dəyəri **665 milyon ABŞ dolları** təşkil edib.



# 2021-Cİ İLİN OKTYABR AYINDA "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ HƏYATA KEÇİRİLƏN İXRACIN STATİSTİKASI

(milyon ABŞ dolları ilə)






## CARİ İLİN OKTYABR AYINDA "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİNİN TƏQDİM ETDİYİ SERTİFİKATLARIN ÖLKƏLƏR ÜZRƏ BÖLGÜSÜ

2021 İXRAC İCMALI oktyabr

| | |
|---|---|
| Türkiyə | 49,1% |
| İsveçrə | 35,9% |
| Rusiya | 9,5% |
| Gürcüstan | 1,8% |
| Honq-Konq | 0,8% |
| Digər ölkələr | 12,4% |



# CARİ İLİN OKTYABR AYINDA "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ ƏN ÇOX İXRAC OLUNAN MƏHSULLARIN BÖLGÜSÜ

2021 İXRAC İCMALI oktyabr



# CARİ İLİN OKTYABR AYINDA "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ İXRAC EDİLƏN MƏHSULLARIN NƏQLİYYAT ÜZRƏ BÖLGÜSÜ

2021 İXRAC İCMALI oktyabr



Avtomobil nəqliyyatı

**55%**



Hava nəqliyyatı

**36,1%**



Dəmiryolu nəqliyyatı

**7,9%**



Qarışıq nəqliyyat

**1%**

İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİNİN
"BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ

AZ 1073, Bakı ş., Yasamal r., Q. Xəlilov küç., 47
47, Khalilov str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Г. Халилова, 47

/BİR PƏNCƏRƏ İxraca Dəstək Mərkəzi




Azərbaycan Respublikasının
Ədliyyə Nazirliyi tərəfindən
"İxrac İcmalı" jurnalı
11 yanvar 2018-ci il tarixində
N4160 nömrəsi ilə mətbu nəşrlərin
reyestrinə daxil edilmişdir.

Bakı, Yasamal rayonu,
Q. Xəlilov küçəsi 47, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.org

http://ereforms.gov.az

/iqtisadiislahat